AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Rezident müəssisənin təsisçisi və yaxud səhmdarısınız?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

**1 yanvar 2019-cu il tarixdən etibarən**

- Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan,
- ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və
- əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan fiziki və hüquqi şəxslərin **dividend gəlirləri** gəlir (mənfəət) və sadələşdirilmiş vergidən azad edilmişdir.

## Əlavə olaraq bilməlisiniz ki...

**1 yanvar 2019-cu il tarixdən etibarən**

- vergi ödəyicisinin **azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən** əldə olunan gəlirlərinin **50 faizi** gəlir və mənfəət vergisindən azad edilmişdir.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az